# Azərbaycanın Xarici İşlər naziri türkiyəli həmkarı ilə bölgədəki son vəziyyətə dair fikir mübadiləsi aparıb

Oktyabrın 21-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramovla Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər bölgədəki son vəziyyət ətrafında fikir mübadiləsi aparıblar.

Bölgədə davamlı sülhün təmin olunması üçün Azərbaycan ərazilərinin işğalına son verilməsinin zəruri olduğu nazirlər tərəfindən vurğulanıb.

Azərbaycan.- 2020.- 22 oktyabr.- S. 2.